Elmi Xəbərlər Jurnalı *Nömrə 3, 2024 222-226*
DOI:10.30546/gdu.3.2024

**UOT:82-09.**

# MİRZƏ ŞƏFİ VAZEH YARADICILIĞINDA MAARİFÇİLİK İDEYALARININ TƏBLİĞİ

***Musayeva Kafiyə Rəşid qızı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Mirzə Şəfi Azərbaycan ədəbiyyatı tarixinə istedadlı lirik şair kimi daxil olmuşdur. Onun aşiqanə - lirik, fəlsəfi və satirik şeirlərində insanın zəngin mənəvi aləmi və ictimai həyatın ziddiyyətləri əksini tapmışdır. Maarifçi realist ədəbiyyatın ilkin görkəmli nümayəndələrindən olan mütəfəkkir şairin nikbin əhval – ruhiyyəli şeirləri Qərbi Avropa ölkələrində və Rusiyada geniş yayılmışdır. Dövründən, ictimai-sosial və siyasi hadisələrin mürəkkəbliyindən asılı olmayaraq Azərbaycan ədəbiyyatında maarifçilik poeziyadan - Nizamidən başlamış, Nəsimi maarifçiliyi özünü təsdiqləmək üçün «Ənəlhəq» deyib üsyan etmiş, bu Füzulidə yüksək zirvəyə çatmış, Xətaidə formalaşmış, XIX əsrdə əvvəlki mütəfəkkirlərdən fərqli olaraq A.A.Bakıxanov və M.Ş.Vazeh kimi təşəkkül dövrü realist maarifçilərini yetirmişdir. Bu hər iki şəxsin maarifçiliyi onların müəllimliyini də özlərində ehtiva edir...*

*Maarifçilik, sadəcə olaraq hadisələrin maarifçi xalq kütlələri arasında yaymaqdan ibarət deyildir. Maarifçilik, tarixi inkişafın müəyyən mərhələlərində yaranan və müəyyən siniflərin mənafeyinə xidmət edən siyasi və ictimai bir hərəkatdır.*

**Açar sözləri:** yaradıcılıq, maarifçilik, sosial-siyasi, fəlsəfi, milliyyət, şeir, ictimai-siyasi xadim, ədəbiyyat, dünyagörüşü

**Ключевые слова:** творчество, просвещение, общественно-политическое, философское, народность, поэзия, общественно-политический деятель, литература, мировоззрение.

**Key words:** creativity, enlightenment, socio-political, philosophical, nationality, poetry, social-political figure, literature, outlook

Mirzə Şəfi Azərbaycan ədəbiyyatı tarixinə istedadlı lirik şair kimi daxil olmuşdur. Onun aşiqanə - lirik, fəlsəfi və satirik şeirlərində insanın zəngin mənəvi aləmi və ictimai həyatın ziddiyyətləri əksini tapmışdır. Maarifçi realist ədəbiyyatın ilkin görkəmli nümayəndələrindən olan mütəfəkkir şairin nikbin əhval – ruhiyyəli şeirləri Qərbi Avropa ölkələrində və Rusiyada geniş yayılmışdır. Dövründən, ictimai-sosial və siyasi hadisələrin mürəkkəbliyindən asılı olmayaraq Azərbaycan ədəbiyyatında maarifçilik poeziyadan - Nizamidən başlamış, Nəsimi maarifçiliyi özünü təsdiqləmək üçün «Ənəlhəq» deyib üsyan etmiş, bu Füzulidə yüksək zirvəyə çatmış Xətaidə formalaşmış, XIX əsrdə əvvəlki mütəfəkkirlərdən fərqli olaraq A.A.Bakıxanov və M.Ş.Vazeh kimi təşəkkül dövrü realist maarifçilərini yetirmişdir. Bu hər iki şəxsin maarifçiliyi onların müəllimliyini də özlərində ehtiva edir...

Maarifçilik, sadəcə olaraq maarifçi xalq kütlələri arasında yaymaqdan ibarət deyildir. Maarifçilik, tarixi inkişafın müəyyən mərhələlərində yaranan və müəyyən siniflərin mənafeyinə xidmət edən siyasi və ictimai bir hərəkatdır.

Maarifçilik, ümumiyyətlə, təhkimçilik hüququnun və onun iqtisadi, ictimai, hüquq sahələrində doğurduğu nəticələrin əlehinə çıxan və bu ictimai, quruluşun məngənəsində əzilən xalq kütlələrinin, xüsusilə aşağı təbəqənin hüququnu

DOI:10.30546/gdu.3.2024

müdafiə edən bir hərəkat kimi tarixdə məlumdur. Əlbəttə, bu hərəkatın məramnaməsində avam kütlələri maarifləndirmək və bu yolla onlara öz hüququnu başa salıb onları oyatmaq əsas yer tutur ki, maarifçilik də bununla əlaqədardır.

1840-cı ildə M.F.Axundov Tiflis qəza məktəbində tatar (Azərbaycan) dili müəllimliyi vəzifəsindən istefaya çıxarkən öz yerinə köhnə müəllimi Mirzə Şəfini məsləhət görmüşdür. Həmin məktəbdən başqa, Mirzə Şəfi qapalı xüsusi orta məktəblərdə də dərs deyir və gözəl müvəffəqiyyətlər qazanırdı. Özünü bilikli hesab edən bir çox adamlar öz birinciliyini Mirzə Şəfiyə güzəştə getməyə məcbur olurdu; belə bir vəziyyət istər-istəməz öz peşə yoldaşları içərisində Mirzə Şəfiyə düşmən yaradırdı. Mirə Şəfini görməyə gözü olmayanlardan biri, özünü “Bağdad müdriki” adlandırmış Mirzə Yusif Şahnazarov deyilən bir nəfər idi.

Mirzə Şəfi həqiqətən istedadlı alim olmuşdur. Onu Mirzə Yusif kimi kütbeynlərlə heç cür müqayisə etmək olmazdı. Bunu Mirzə Şəfi özü də hiss edirdi. O özünün şeirlərindən birində yazır: “Yox, yox, Mirzə Şəfi belə yaratmır, o belə yaratmır. O, qəlbində isti çeşmə, döşündə çiçəklənən bağ bəsləyir; onda ulduzlar səyrişir, ətrafa ətir saçır.” [1,89]

Mirzə Şəfi öz şagirdlərinə yanaşmağı bacaran gözəl pedaqoq olmuşdur. O, olduqca qəşəng xətlə yazırdı. Bununla yanaşı Mirzə Şəfi öz yazısına rəngarənglik verir, hərfləri mətnin məzmununa uyğunlaşdırırdı. Adi şeylər haqqında yazmaq lazım gəldikdə, Mirzə Şəfi bunu sadə geyimə salır, qəşəng şeyləri bayramsayağı ifadə edir, qadınlara aid olan məktubu isə xüsusi incə xətlə yazırdı.

M.F.Axundov Mirzə Şəfiyə yüksək qiymət vermişdir. O, Mirzə Şəfini böyük müdrik adlandırmışdır. Mirzə Şəfi Qərbi Avropa ədəbiyyatını Bakıxanovun və Bodenştedtin vasitəsilə oxumuşdur. Mirzə Şəfi rus ədəbiyyatına da yaxşı bələd idi.

Mirzə Şəfinin fikirləri ruhaniləri çox narahat edirdi. Odur ki, onlar Mirzə Şəfini təqsirləndirmək üçün bəhanə axtarırdılar. Ruhanilər Mirzə Şəfiyə böhtan ataraq deyirdilər ki, guya o öz nəğmələri ilə gəncliyi pozur. Ruhanilər belə nəğmə yazmaqdan Mirzə Şəfini uzaqlaşdırmağa çalışır, onu açıqdan-açığa hədələyirdilər. Mirzə Şəfi onlara qarşı olan öz qəzəbini dönmədən, axıradək bildirirdi. Mirzə Şəfi özü ilə ruhani və mollalar arasındakı münasibətə dair fikirlərinə belə aydınlıq gətirir: “Ayı ilə onun təlimçisi necə rəftar edirsə, mənimlə də bu cür rəftar etmək istəyirlər. Ayının təlimçisi onun dişini çıxarır və sonradan onu zəncirləyir.” [2,48]

Ruhaniliyin bütün çürüklüyünü və zərərini başa düşən Mirzə Şəfi dinə qarşı şeirlər yazmaqla davam edirdi. O, yazırdı: “Şairin şeirlərindən məscid iyi gəlirsə və o dəhşətlə sızıldayırsa, demək şairin başı boş, bilikləri isə dumanlıdır.”

Mirzə Şəfi bir sıra şeirlərində məscidə və ona qulluq göstərənlərə qarşı hücum edirdi. O özünün “Mirzə Şəfi nəğmə deyir” adlı şerində yazır: mənimlə bizim mücrəhid arasındakı fərq nədədir? Bizim hər ikimiz xalq qarşısında öyüd-nəsihətlə ağlımızın yükündən azad olmağa çalışırıq: mən nəğmə ilə, o-iyrənc ciyilti ilə; onun ürəyi qalın ət içərisində elə dərin gizlənmişdir ki, heç zaman heç bir şey onun ürəyindən xaricə çıxmır; mən isə öz ürəyimi dilimdə gəzdirirəm. O məni gizlində dili ilə dalamağı sevir, mən isə açıqdan-açığa onu ifşa edirəm; mən onun qəzəbindən qorxmaqdansa, o mənim istehzamdan daha çox qorxur.

Mirzə Şəfinin müctəhidə aid olan bu söhbəti göstərir ki, o, ruhanilərin yaltaq, qorxaq, başı boş olduğunu cəsarətlə tənqid etmişdir. Mirzə Şəfinin şeirlərində dini xurafata qarşı mübarizə ideyası mühüm yer tutur. Şair göstərir ki, insan bir dəfə dünyaya gəldiyi və onun iki həyatı olmadığı üçün, o biri dünyaya ümid bəsləməməli, yer üzündə xoşbəxt olmağa çalışmalıdır. Cənnəti bu dünyada axtarmaq lazımdır, xoşbəxtlik göylərdə deyildir.... O bu barədə çoxlu qısa kəlamlar, aforizmlər yazır. Şairin qənaətinə görə, bu cür şeirlər xalqa asanlıqla çatır, onların qəlbinə tez təsir edir və çox yaşayır. Mirzə Şəfinin hətta ayrı – ayrı din

DOI:10.30546/gdu.3.2024

formalarının mahiyyətini eyniləşdirilməsi belə onun düşmənləri olan mollaların xüsusi nifrətinə səbəb olurdu. Ruhanilərin fitnəsi ilə Mirzə Şəfi Tiflisdən uzaqlaşdırılır; o, Gəncəyə gəlir, yenidən müəllimlik edir. Günlərinin çoxunu Gəncədə şairlərlə eyni məclisdə keçirir.

1850-ci ildə Mirzə Şəfi yenidən Tiflisə qayıdır. O, 1850-ci il yanvarın 1-dən Tiflis gimnaziyasında tatar dili üzrə kiçik müəllim vəzifəsinə təyin edilir. Şairin həyatının bu dövrü onun əsas əsəri olan "Müntəxəbat"la əlamətdardır. Bir dərslik olmaq etibarilə bu müntəxəbat gimnaziyada tatar dili üçün hazırlanmışdır. Müasirlərinin rəyinə görə bu kitab gözəl dərslik olmaqla bərabər, qiymətli elmi əsər olmuşdur.

İstər bədii əsərlərində, istərsə də "Müntəxabat"da Mirzə Şəfi Vazehin cənnət və cəhənnəm anlayışlarına tənqidi münasibəti, ciddi istehzaları onun bədii-estetik görüşlərini aydınlaşdırmaqda prinsipial əhəmiyyətə malikdir.

Mirzə Şəfi Vazehin aforizmləri insanların xeyr əməllərə, faydalı əməyə, ədalətə, cəsarətə, biliyə, özünü idraka, arifliyə, namusluluğa, açıq ürəkliliyə çağırır. Bu fikir və tövsiyələr şairin qabaqcıl dünya görüşünü dərk etməkdə bizə yardım göstərir, onun real, insani sifətini canlandırır.

Şairi oxuculara sevdirən cəhətlərdən biri də mənalı fikirlər ifadə etmək məharətidir: "Üç keyfiyyət ancaq üç vəziyyətdə məlum olur: qəhrəmanlıq – döyüşdə, ariflik – qəzəb vaxtı, dost – ehtiyacda". Və yaxud: "Alim üçün belə bir şəhərdə yaşamaq layiq deyil ki, orada beş məsələ yoxdur: Mühakiməli hökmdar, ədalətli məhkəmə, bacarıqlı hakim, axar su və təhlükəsiz bazar". [4,129]

Atalar sözü, lətifələt, nağıllar, müxtəlif şəkillərdə ifadə olunan hikmətli fikirlər onun poeziyasında yeni məna alırdı.

Berje Mirzə Şəfi haqqında yazır: "Mirzə Şəfi öz şəxsi həyatında yüksək əxlaq saflığına və qəlbinin nadir keyfiyyətlərinə görə onu tanıyanların məhəbbətini qazanmışdır. Onun qəbri Tiflisdədir və çoxdan alaq basmışdır".

Azərbaycan xalqının istedadlı oğlu, bütün varlığı ilə hər cür istismarçılara, müftəxorlara nifrət etmiş müdrik alim, müəllim, şair, vətəndaş olan Mirzə Şəfi öz həyatını belə başa vurmuşdur. Mirzə Şəfinin nəğmələrində şənlik səslənirdi, orada adi həyat öz əksini tapırdı. Onun nəğmələri müxtəlif mövzuya: ruhaniliyin riyakar əxlaqına qarşı etiraza, məmurlar dairəsinin əxlaqına rişxənd etməyə, əməyin mədhinə, dostluq, sevgi, beynəlmiləlçilik, doğruçuluq, namus və sağlam düşüncəyə həsr olunmuşdur.

Rus tərcüməçilərindən biri Mirzə Şəfinin poeziyasına belə qiymət verir: "Mirzə Şəfinin nəğmə və fikirləri özünün şairanə, ruhlandırıcı xüsusiyyəti ilə müvəffəqiyyətə layiq olmuşdur... Onun şerində həyata gümrah və həyəcanlı bir baxış əks olunmuşdur. Lakin buradan o nəticə çıxmır ki, müəllif dövrünün xəstəliklərinə, kölgəli cəhətlərinə qarşı laqeyd olmuşdur; əksinə, o, bu cəhətləri kifayət qədər başa düşür və öz poeziyasında onu tərənnüm edir; buna baxmayaraq onun poeziyasında gümrah və işıqlı bir ahəng hökm sürür". [5,108]

"Mirzə Şəfinin nəğmələri" adlı kitab Bodenştedti məşhur etmiş və dünyanın demək olar ki, bütün dillərinə tərcümə olunmuşdur; hətta o, qədim yəhudi dilinə də tərcümə edilmişdir.

Mirzə Şəfinin yüksək ideyaları ölmədi, bu ideyalar gələcək nəslin inkişafına təsir göstərdi və M.F.Axundov kimi mütəfəkkirlər Mirzə Şəfinin mütərəqqi ideyalarını mənimsəyib, onu daha da inkişaf etdirmişdi.

M.Ş.Vazehin həyat və yaradıcılığı Avropa, Rusiya və Azərbaycan tədqiqatçılarının diqqətini cəlb etmiş, müxtəlif ictimai quruluşlarda ayrı-ayrı tədqiqatçıların onun yaradıcılığına müraciət etdiyini görürük. Mirzə Şəfi uşaqlara müstəqil düşünmək və çalışmaq bacarığı verən, yeni dünyəvi elmlərin təlim üsullarının tərəfdarı idi. Bu məsələni nəzəri cəhətdən həll etməklə və məscid hücrələrində islahatlar aparılmasının zəruriliyini söyləməklə

DOI:10.30546/gdu.3.2024

kifayətlənməmiş "Divani-Hikmət" məclisində özünün bir sıra fikirlərini əməli olaraq həyata keçirmişdir (müasirləri Mirzə Fətəliyə, A.A.Bakıxanova, F.Bodenştedə təsiri). O, evində fərdi dərs deməklə məşğul olmuşdur. 1840-cı ildə M.F.Axundov Tiflis Qəza məktəbində Şərq dilləri üzrə müəllim işləyirdi. Həmin il bu vəzifədən çıxarkən öz yerinə müəllimi Mirzə Şəfini məsləhət görmüşdür. Mirzə Şəfi tərəfindən uşaqların istifadəsinə vermək üçün hazırlanan Azərbaycan dilini öyrənənlər üçün dərslik hazırlamış lakin əziyyəti nəticəsiz qalmışdır.

Mirzə Şəfi Azərbaycanda görkəmli maarifpərvərlərdən biri olmuşdur. O, ağır ictimai şəraitdə mübariz bir maarifçi kimi çıxış etmiş, cəmiyyətin inkişafında elmin böyük əhəmiyyətə malik olduğunu göstərmişdir. O, bütün ömrünü cəfakeş müəllim peşəsinə həsr etmişdir.

Mirzə Şəfinin bədii yaradıcılığı, onun əsərlərində irəli sürdüyü ictimai – fəlsəfi ideyalar xalqımızın mədəniyyət tarixində xüsusi yer tutur. Şairin yaşadığı dövrdə həmin ideyalar bütün köhnə cəmiyyətə, onun həyat tərzi və geri qalmış görüşlərinə qarşı çevrilmişdi. O dövrdə köhnə cəmiyyətə, islam dini və şəriət qaydalarına qarşı az adam belə açıq, cəsarətlə çıxış edə bilərdi. Buna görə Mirzə Şəfi müəyyən mənada tək idi.

Mirzə Şəfi öz ədəbi fəaliyyəti ilə Azərbaycanda bütün sonrakı ictimai fikrin inkişafına verdiyi güclü təkanın nəticələrini görə bilmədi. Lakin onun ideyaları getdikcə yayıldı. M.F.Axundov, H.B.Zərdabi, S.Ə.Şirvani, M.Ə.Sabir və başqa ədib və mütəfəkkirlərimiz tərəfindən davam və inkişaf etdirildi. Yaradıcı insanların, elm adamlarının tərcümeyi-halı yalnız onların deyil, bütövlükdə mənsub olduqları xalqın mədəni-siyasi həyatı ilə şərtlənir; tərcümeyi-halda hər şey – nöqtə, vergül də düz olmalıdır. Bu deyilənlər əsasında Gəncə müdriki Mirzə Şəfi Vazehin həyatını nəzərdən keçirmək maariflənmiş ağıl sahiblərinin vəzifəsidir.

***Ədəbiyyat***


1. S.Mümtaz. Mirzə Şəfi. Bakı, 1926.
2. F.Qasımzadə. "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi". Bakı, 1956.
3. S.Şükürov. "XIX və XX əsrlər Azərbaycan ədəbiyyatına aid tədqiqlər". Bakı, 2002.
4. S.Şükürov. "Gəncəli Vazehin nağılı". Bakı, 1998.
5. Əlisa Nicat. "Nəğməyə dönmüş ömür". Bakı, 1980.
6. Akif Bayramov. "Mirzə Şəfinin ədəbi irsi". Bakı, 1980.


## ПРОПАГАНДА ИДЕЙ ПРОСВЕЩЕНИЯ В ТВОРЧЕСТВЕ МИРЗЫ ШАФИ ВАЗЕХА

***Мусаева Кафия Рашидовна***

***Резюме***

Мирза Шафи вошел в историю азербайджанской литературы как талантливый лирик. Его любовные стихи-лирические, философские и сатирические-отражают богатый духовный мир человека и противоречия общественной жизни. Оптимистические стихи поэта-мыслителя, одного из первых ярких представителей просвещенной реалистической литературы, широко распространены в странах Западной Европы и России. Просвещение в азербайджанской литературе, независимо от сложности общественно-социальных и политических событий, началось с поэзии Низами, просветительство Насими восстало, под названием «Аналхак», чтобы

DOI:10.30546/gdu.3.2024

самоутвердиться, и оно сформировалось в Хатаи, достигнув высокого расцвета в Физули. В отличие от предшествующих мыслителей XIX в., период становления принес таких просветителей-реалистов, как А.А.Бакихнова и М.Ш.Вазеха. Просветление этих двух людей включает в себя их учительство...

Просвещение – это не просто распространение событий относительно просвещения среди масс. Просвещение-политическое и общественное движение, возникшее на определённых этапах исторического развития и служившее интересам определённых классов.

## PROMOTION OF ENLIGHTENMENT IDEAS IN THE CREATION OF MIRZA SHAFI VAZEH

***Musayeva Kafiya Rashid***

***Summary***

Mirza Shafi entered the history of Azerbaijani literature as a talented lyric poet. His love poems - lyrical, philosophical and satirical - reflect the rich spiritual world of man and the contradictions of social life. The optimistic poems of the thinker poet, one of the first outstanding representatives of enlightened realist literature, are widely spread in Western European countries and Russia. Enlightenment in Azerbaijani literature, regardless of the complexity of social and political events, began with poetry - Nizami, Nasimi rebelled by calling enlightenment "Analhaq" to assert himself, and it was formed in Khatai, which reached a high peak in Fuzuli. Unlike the previous thinkers in the 19th century, the formative period brought realist educators like A.A.Bakikhanov and M.Sh. Vazeh. The enlightenment of these two people includes their teaching...

Enlightenment is not simply about spreading enlightenment events among the masses. Enlightenment is a political and social movement that arose at certain stages of historical development and served the interests of certain classes.

***Rəyçi: Dosent Qazıyev Qvami***

***Azərbaycan və dünya ədəbiyyatı kafedrasının 04 sentyabr 2024-cü il tarixli iclasın 01 saylı protokolu***

***Daxil olma tarixi***